## BU VƏZİFƏYƏ TƏYİN OLUNMAQLA ÖHDƏMƏ DÜŞƏN MƏSULİYYƏTİN CİDDİLİYİNİ TAM ŞƏKİLDƏ DƏRK EDİRƏM VƏ İNANIRAM Kİ, CƏNAB PREZİDENT, SİZİN VƏ MƏNƏ İNANAN BÜTÜN İNSANLARIN ETİMADINI DOĞRULTMAĞI BACARACAĞAM

**Mehriban Əliyeva,** Birinci vitse-prezident

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam... Mən Sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

# Birinci xanımın Azərbaycan təhsilinə böyük töhfəsi

Bəzən deyirlər ki, insanın adı onun xarakterini, xasiyyətini, davranışını, hətta gələcək həyat yolunu, taleyini müəyyənləşdirir. Hər adın öz ictimai obrazı, mənası var. Elə xalqımız tərəfindən sevilən, hamının doğması kimi qəbul etdiyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın timsalında bu fikrin doğrudan da öz təsdiqini tapdığını görürük. Sadəlik, mərhəmət, qayğıkeşlik, həssaslıq və ən əsası, hamıya qarşı mehriban münasibət. Budur, Mehriban Əliyevanı xalqa sevdirən özəllikləri. Vətənə sədaqət, milli dəyərlərə hörmət bu nəcib insanın hərtərəfli fəaliyyətinin əsas prinsipini təşkil edir.

Prezident İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban Əliyevanın sosial, humanitar və iqtisadi siyasətin həyata keçirilməsində rolu danılmazdır. Və təbii ki, müasir Azərbaycanın quruculuğunda bu tandem mühüm əhəmiyyət kəsb edir. Mehriban Əliyeva Birinci vitse-prezident kimi fəaliyyəti dövründə qısa bir müddət ərzində yüksək biliyi, peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açaraq xüsusilə idarəetmədə qadınların rolunun artmasına təkan vermişdir.

Mehriban Əliyeva ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, onun çoxşaxəli fəaliyyətində təhsil, səhiyyə, idman, mədəniyyətimizin təbliği, xeyriyyəçilik, ətraf mühitin qorunması və adlarını qeyd etmədiyimiz digər sahələrin hər biri diqqətdə saxlanılır. Mehriban Əliyeva xüsusilə təhsilimizin hamisi, bu sahəyə ən çox qayğı və həssaslıqla yanaşan xanımdır.

Ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva söyləyir ki, hər bir dövlətin əsas sərvəti onun malik olduğu insan amilidir və Azərbaycanın da gələcəyi məhz bu gün təhsil alan uşaqlardan, gənclərdən asılıdır. Ona görə də ölkəmizdə təhsil prioritet sahələrdən biridir və onun inkişafına xüsusi diqqət ayrılır, gənc nəslin biliklərə mükəmməl yiyələnməsi üçün bütün lazımi addımlar atılır.

### Heydər Əliyev Fondunun yaradıcısı

Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısıdır. Dahi şəxsiyyətin adına Fondun təsis edilməsi də məhz bu təşkilatçı xanımın adı ilə bağlıdır. Hər zaman çıxışlarında Mehriban Əliyeva Heydər Əliyev Fondunu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradıldığını xüsusi qeyd edərək təşkilatın istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından uzaqlarda gördüyü işlərlə adından söz etdirməyi uğurla bacarır.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təhsil, səhiyyə, mədəniyyət sahələrində reallaşdırdığı genişmiqyaslı layihələr, istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda həyata keçirdiyi müxtəlifyönlü tədbirlər xeyirxahlıq simvoluna çevrilmiş bu nəcib əməllər sahibinin hərtərəfli bilik və bacarıqlara malik olmasının göstəricisidir.

### Təhsillə bağlı layihələr

Qeyd etdiyimiz kimi Fondun fəaliyyətində təhsilə diqqət və qayğı xüsusi önəm kəsb edir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə təhsillə bağlı bir çox irimiqyaslı layihə və proqramlar uğurla həyata keçirilir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" öz əhatə dairəsinin genişliyinə görə ən diqqətçəkən layihələrdəndir. Ən əhəmiyyətlisi odur ki, öz coğrafiyasına görə bütün ölkəni əhatə edən bu layihə çərçivəsində on illərlə təmir edilməmiş, tam yararsız və qəza vəziyyətində olan, təlim-tərbiyə üçün heç bir şəraiti olmayan məktəblərin yerində çoxlu sayda müasir standartlara uyğun yeni binalar, həmçinin internat məktəbi, uşaq bağçası və körpələr evi inşa edilmiş, təmir olunmuşdur. Bu müəssisələr ən müasir avadanlıqlarla təchiz olunaraq şagirdlərin, balacaların istifadəsinə verilmişdir.

Fondun təhsillə bağlı həyata keçirdiyi proqramlar sırasında "Təhsilə dəstək" isə birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə - məktəblərin əyani vəsaitlə, şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına yönəlib. Belə ki, Fond hər yeni tədris ilində silsilə aksiyalar keçirməklə bu sahədə bir sıra problemlərin aradan qaldırılmasına əhəmiyyətli töhfə verir. 2004-cü ildən başlayaraq Fond qaçqın və məcburi köçkün ailələrindən olan I sinif şagirdlərinə məktəbli çantaları və dərs ləvazimatı paylayır. Artıq son bir neçə ildir bu proses ölkədəki bütün orta məktəbləri əhatə edir.

Onu da xüsusi qeyd edək ki, "Təhsilə dəstək" layihəsi məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulmasını da əhatə edir. Layihə çərçivəsində paytaxt Bakı və kəndlərində, eləcə də bölgələrdə uşaq bağçaları əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz edilir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bilavasitə rəhbərlik etdiyi layihələrin əsasında uşaqlara qayğı önəmli yer tutur. Birinci xanım uşaq evlərinin və internat məktəblərinin ən müasir səviyyədə qurulmasını, təşkilini diqqətdə saxlayaraq körpələrin fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün əlindən gələni əsirgəmir. Fond tərəfindən "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə çox sayda uşaq müəssisəsi əsaslı təmir olunub.

Göründüyü kimi, Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond təhsillə bağlı proqramların icrasını həyata keçirərək dövlət təhsil siyasətinin reallaşmasında müstəsna əhəmiyyətə malik işlər görür. Həyata keçirilən layihələr nəticəsində paytaxt Bakı ilə yanaşı, hətta respublikamızın ən ucqar regionlarında belə, müasir tələblərə cavab verən hər cür ləvazimatla təmin olunmuş çoxlu sayda məktəblər tikilib istifadəyə verilmiş, təhsilin bütün ölkə ərazisində əlçatanlığı təmin edilmişdir. Müasir tipli məktəblərin, bağçaların inşası, tədris prosesində normal şəraitin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması son illər ərzində Azərbaycan təhsilinin beynəlxalq təhsil məkanına inteqrasiyasını gücləndirmiş və şagirdlərimizin beynəlxalq fənn olimpiadalarında, müsabiqələrdə, bilik yarışlarında uğurlarının əsas təminatçısı olmuşdur.

Heydər Əliyev Fondunun son illərdə həyata keçirdiyi növbəti uğurlu işlərdən biri də təhsilalanların müasir bilik və bacarıqlarının, XXI əsr səriştələrinin inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edən inteqrativ təhsil yanaşmalarının ölkəmizin təhsil müəssisələrində geniş tətbiqinə dəstəyidir. Məhz Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq "STEAM Azərbaycan" layihəsinə start verib. Hazırda ölkəmizin bir sıra məktəblərində STEAM otaqları və mərkəzləri fəaliyyət göstərir.

Heydər Əliyev Fondunun dəstək verdiyi bu layihə ölkəmizdə elm və təhsil sahəsində yeniliklərin tətbiqinə, təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsinə, gənc nəslin yeni ideyalarının reallaşdırılmasına göstərilən diqqətin və əhəmiyyətin əyani təzahürüdür.

Ölkəmizdə təhsil sistemini modernləşdirmək və dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı proqram və layihələrin əsas hədəflərindəndir.

Heydər Əliyev Fondunun təhsilə qayğısının coğrafiyası genişdir. Artıq dünyada nüfuzlu qurum kimi tanınan Fond xeyriyyəçilik missiyasını bir neçə ölkədə uğurla davam etdirir.

### Birinci xanımın xidmətləri

Mehriban Əliyevanın timsalında birinci xanım statusu ənənəvilikdən tamamilə fərqlidir. Azərbaycanın birinci xanımı özündə humanizmi, mərhəməti, xeyriyyəçilik və qayğıkeşliyi ehtiva etməklə yanaşı, Heydər Əliyev Fondunun prezidenti kimi elm, təhsil, səhiyyə, ədəbiyyat, mədəniyyət və digər sahələrdə həyata keçirilən çoxsaylı uğurlu layihələrin, həmçinin mədəni irsimizin qorunması və beynəlxalq arenada təbliği ilə bağlı reallaşdırılan proqramların müəllifidir.

Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti boyu Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətlər göstərib.

Birinci xanımın xidmətləri sırasında torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ilhamlandıran müraciət və çağırışları, ölkə başçısı İlham Əliyevlə birlikdə Qarabağa çoxsaylı səfərləri, işğaldan azad edilən ərazilərimizdə reallaşdırılan genişmiqyaslı tikintibərpa işləri, 32 ildən sonra Şuşada möhtəşəm "Xarıbülbül" musiqi festivallarının təşkili xüsusi yer tutur.

Hazırda Heydər Əliyev Fondu Böyük Qayıdış Proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə təhsil mühitinin dəstəklənməsinə mühüm töhfələr verir.

Hər birimizin yadına 44 günlük Vətən müharibəsinin ilk günlərində Mehriban Əliyevanın xalqa müraciətindəki ürəkləri riqqətə gətirən sözlər düşür: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!".

**Samirə KƏRİMOVA**

Azərbaycan müəllimi.- 2025.- 22 fevral, №7.- S.3.